# “Savalan”ın şöhrəti dünyanı gəzir

***Qəbələ — Ağdaş yolunun Savalan kəndi ərazisindən keçən hissəsindəki “Savalan” üzüm emalı zavodunun şanı-şöhrəti artıq nəinki Qəbələdə, həmçinin respublikada, eləcə də dünyanın bir çox ölkələrində də gəzib-dolaşır.***





İtaliya və Fransadan gətirilib yetişdirilən 21 növ texniki, 14 növ süfrə üzümünün ləzzətindən, təcrübəli və peşəkar kadrların müasir avadanlıqlarla təmin olunan zavodda istehsal etdikləri dünyada öz yerini tutan “Savalan” çaxırından hamı razılıqla danışır. Yayda üzüm yığımı vaxtında da burada olmuşduq. Savalanın özündən, qonşu kəndlərdən gələn yüzlərlə adam bu məsul kampaniyaya qoşulmuşdu. Onlar gündəlik gördükləri işin müqabilində gündəlik əmək haqlarını aldıqlarını bildirdilər, yığımın mütəşəkkil aparılması üçün burada çalışanlar üçün lazımi şərait yaradıldığından razılıqla danışdılar.

Zavodun direktoru Əjdər Şəfizadə indi müəssisədə ilkin emal və hazır məhsul istehsalı istiqamətində tələb olunan işlər aparıldığından söhbət açdı. Direktorla, ayrı-ayrı adamlarla söhbətlərimizdən, sözügedən müəssisə haqqında ölkə və dünya mətbuatında verilən məlumatlardan tam qənaətə gəldik ki, “Savalan”ın şöhrəti artıq dünyanı gəzir.

Bəli, adı dünyanın şərab sərgilərində çəkilən, özü bir sıra dünya əhəmiyyətli ali məktəblərlə sıx əlaqə saxlayan “Savalan” üzüm emalı və şərab istehsalı zavodunda təcrübə keçən tələbələr üçün hər cür şərait yaradılmışdı. Yeri gəlmişkən qeyd edək ki, şərab istehsalında böyük təcrübəsi olan, zavod işə başlayan ilk vaxtlardan iki nəfər italiyalı mütəxəssis də burada işləyir. Daniel Dandrea və Elisa Vaqnoninin səyi ilə artıq buradakı yerli mütəxəssislər də püxtələşiblər. Təcrübə keçən tələbələr Qəbələnin təbiətinə, onun gözəlliyinə, adamlarının qonaqpərvərliyinə, zəngin tarix və mədəniyyət abidələrinə heyran olduqlarını söyləmişlər. Tələbə Flippo Montaqner və Allesandro Sant burada onlar üçün yaxşı şərait yaradıldığını, “Savalan” şərablarını çox bəyəndiklərini, hətta bu məhsulların Avropa şərablarından aşağı olmadığını vurğulamışlar. İtaliyalı tələbələrin bir fikri də diqqəti çəkir ki, İtaliyanın şərab zavodlarınınhər birində 5-6 çeşiddə şərab istehsal olunursa, İtaliya texnologiyası ilə fəaliyyət gös-tərən “Savalan” şərab zavodu 16 çeşiddə şərab istehsal edib dünyaya çıxarır.

Bəli, bu gün müstəqil Azərbaycanın həyata keçirdiyi aqrar siyasət “ASPİ-AQRO” MMC-nin, onun bütün müəssisələrinin, o cümlədən “Savalan” şərab zavodunun timsalında uğurla həyata keçirilir.

Zavodun direktoru Əjdər Şəfizadə söhbət əsnasında onu da bildirdi ki, kənd təsərrüfatında emal sənayesinin daha da inkişaf etdirilməsi üçün məqsədyönlü şəkildə ardıcıl olaraq tədbirlər keçirilirlər. Xarici dövlətlərin müvafiq emal müəssisələrinin iş təcrübəsini öyrənib öz fəaliyyətlərini daha da təkmilləşdirməyə xüsusi diqqət yetirirlər.

**Rasim AMANOV,**
**«Respublika» qəzeti.**

# Qəbələdə fərqli “ABAD” satış-sərgi mərkəzi fəaliyyətə başlayacaq

***Bu barədə AZƏRTAC-a müsahibəsində “ABAD” publik hüquqi şəxsin ictimaiyyətlə əlaqələr sektorunun müdiri Elvin Şirinov məlumat verib.***

***Elvin Şirinov bildirib ki, Qəbələdə “ABAD” art-kafe konsepsiyası hazırlanıb. Bundan əlavə, yaxın vaxtlarda “ABADçı” ailə təsərrüfatlarının məhsulları böyük otellər şəbəkəsinə təqdim olunacaq. Bu məhsulların xarici bazarlara çıxarılması da planlaşdırılır. “ABADçı” ailələrin məhsullarının satışını asanlaşdırmaq üçün satış portalı da təsis edilib.***

Sektor müdiri deyib ki, Azərbaycanın zəngin mədəniyyətinə xas olan, lakin bu gün unudulmaqda olan mədəniyyət, incəsənət nümunələrinin yaşadılması məqsədilə müasir dövrün qabaqcıl texnologiyalarının və dekorativ-tətbiqi xalq sənətkarlığının vəhdətini yaratmaq üçün artıq “ABAD” məktəbi fəaliyyətə başlayıb. Bu, ilk olaraq Qubadakı “ASAN həyat” kompleksində yaradılıb. Gələcəkdə belə məktəblər digər bölgələrdə də fəaliyyətə başlayacaq. Bu məktəblərdə dekorativ-tətbiqi xalq sənətkarlığı ilə yanaşı, “ABAD”ın əsas fəaliyyət istiqamətində nəzərdə tutulmuş nəzəri kurslar da təşkil olunacaq. Sahibkarlıqla məşğul olmaq istəyən vətəndaşlara qanunvericiliyin tələbləri izah olunacaq, sertifikat almaq üçün qaydalar barədə maarifləndirmə işləri aparılacaq. Gələcəkdə “ABAD” öz məhsullarını daha böyük həcmdə və daha geniş təqdim edəcək. İlk dövrlərdə “ABAD” sərgi-satış mərkəzlərinin alıcıları daha çox əcnəbi vətəndaşlar idisə, bu gün yerli alıcıların sayı sürətlə artır.



Xatırladaq ki, “ABAD” publik hüquqi şəxs 2016-cı il sentyabrın 23-də Prezident İlham Əliyevin Fərmanı ilə yaradılıb. Fərman imzalandıqdan sonra “ABAD” öz fəaliyyətinə pilot layihə çərçivəsində Masallı rayonunda başlayıb. Daha sonra isə 2017-ci ilin avqust ayında Balakəndə regional “ABAD” mərkəzi inzibati binasının açılışı olub. Bu günlərdə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Quba şəhərində “ASAN həyat” kompleksinin açılışı oldu. Bu kompleksin tərkibində, həmçinin “ABAD mərkəz” fəaliyyət göstərir. “ABAD” ərzaq məhsullarının istehsalı ilə məşğul olan, habelə dekorativ-tətbiqi xalq sənətkarlığı sahəsində çalışan ailələrə dəstək göstərir. Bu gün “ABAD”a ərzaq üzrə müraciət etmiş 24 ailə təsərrüfatının 19-nun ailə brendi yaradılıb. Onların məhsulları bazarda öz ailə adları ilə təqdim olunur. Əgər birinci “ABAD” sərgi-satış mərkəzi fəaliyyətə başladığı dövrdə orada 60-a yaxın ailənin əl işləri və ərzaq məhsulları sərgilənirdisə, bu gün “ABAD” öz ətrafında artıq 162 ailəni birləşdirib. Onlardan 24-ü ərzaq məhsulları, 138-i isə dekorativ-tətbiqi xalq sənətkarlığı istiqamətində çalışır. Ümumilikdə, “ABAD” tərəfindən ailələrə 22 monoblok-konteyner şəklində istehsal avadanlığı təqdim olunub, dekorativ-tətbiqi xalq sənətkarlığı ilə məşğul olanlara isə 16 taxta-oyma və xalçaçılıq dəzgahı verilib. İndiyədək “ABAD” 300 min manatdan artıq dövriyyə formalaşdırıb. “ABADçı” ailələrin, ailə təsərrüfatlarının bank hesablarına “ABAD” tərəfindən 200 min manatdan artıq vəsait köçürülüb. “ABAD”a qoşulan ailələr bu gün biznes-planlaşdırma, maliyyə, mühasibat, marketinq, logistika, satışın təşkili ailə brendlərinin yaradılması istiqamətində dəstək alırlar.

“ABAD”ın xaricdəki fəaliyyəti barədə məlumat verən Elvin Şirinov qeyd edib ki, BMT-də dövlət xidmətləri üzrə konfrans çərçivəsində “ABAD” təqdim olunub. Bundan başqa, “ABAD” əməkdaşları Portuqaliyada keçirilən və əl işlərinə həsr olunmuş yarmarkalarda iştirak ediblər. Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində “ABAD” əməkdaşlarının İrlandiyaya səfəri təşkil olunub və burada onlar ailə təsərrüfatlarına dəstək üzrə qabaqcıl texnologiyalarla tanış olublar. “ABAD” Avropa İttifaqının qrant layihəsini qazanıb. Bu qrant layihəsi üzrə imzalanma mərasimi keçirilib. Bu qrant layihəsi çərçivəsində Balakən “ABAD” regional mərkəzi əsas olmaqla “ABAD” Şəki-Zaqatala zonasında 30-dan artıq ailəyə dəstək göstərilməsi nəzərdə tutulub. Bu ailə təsərrüfatlarının məhsulları brendləşdiriləcək və rəqabətqabiliyyətli ailə təsərrüfatına çevrilməsi reallaşdırılacaq. Hazırda BMT-nin İnkişaf Proqramı ilə birgə İsmayıllı rayonunda arıçılığa dəstək üzrə layihə həyata keçirilir. “Ümumilikdə, xarici ölkələrdən Azərbaycana səfər edən nümayəndə heyətləri “ASAN xidmət”in təcrübəsi ilə tanış olurdularsa, bu gün artıq biz “ABAD” layihəsinə olan marağı müşahidə edirik. Onlar artıq “ABAD” haqqında öyrənir və öz ölkələrində bunu tətbiq etməyə maraq göstərirlər”, - deyə Elvin Şirinov bildirib.

## Mövsümdə 19500 hektardan çox sahədə taxıl əkilib

Qəbələdə taxıl əkini müvəffəqiyyətlə başa çatıb. Səpin kampaniyasına mütəşəkkil başlayan torpaq mülkiyyətçiləri əkini qısa müddətdə başa çatdırmaq üçün bütün imkanlardan istifadə ediblər.

Məhsul istehsalçıları səpin başlayandan bu günədək 19500 hektardan çox sahəyə toxum səpiblər. Səpin aparılmış sahələrin14100 hektardan çoxunu buğda, 5400 hektarını isə arpa sahələri təşkil edir. Məhsul istehsalçıları daha 2000 hektar sahədə yazlıq taxıl əkməyi planlaşdırırlar.

**“Qəbələ”**

## Yeni bağların salınması davam edir

Ölkəmizə qış fəsli gəlsə də hələlik güclü qar yağmadığına görə havalar kənd əməkçilərinin bağlarda işlərini davam etdirilməsi üçün çox əlverişli keçir. Bağlarda budama təmizləmə işləri aparılır. Qurumuş, sıradan çıxmış ağacların yerinə yeni ağaclar əkilir. Fındıqçılıqda eyni zamanda yeni bağların əkini işləri davam edir. Artıq bu günə qədər 252 hektarda yeni fındıq bağı salınmışdır. Köhnə bağlarda ağaclara qulluq edilir, ağacların dibinə gubrələmə, peyin verilməsi işləri aparılır.

Yeri gəlmişkən qeyd edək ki, bu il bağbanlarımız 7100 ton fındıq məhsulu istehsal etmişlər ki, bu da kənd əhalisinin rifah halının xeyli yaxşılaşmasına stimul yaratmışdır. Fındıq məhsulunun satış qiyməti də kəndlilər və istehlakçılar üçün əlverişlidir.

**Rais RƏŞİDOV,**
**«Qəbələ»**